1_Layout 1 29.05.2018 17:03 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 11 (527)

31 may 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNAN RƏSMİ QƏBULDA İŞTİRAK EDİB

***Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.***



Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqindən:**

- Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

- Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

- Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

- Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında Ulu Öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

- 1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

- Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

- Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata - Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

- Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.

- Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

- Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

- Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gəlməyənə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

- 1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

- Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

*****

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

***Mayın 25-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə əvvəlcə Milli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiətilə Dövlət Himni ifa olunub.***





Sonra "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və inkişaf mərhələsi tarixi nailiyyətimizdir" mövzusunda çıxış üçün söz Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Ələmdar Şahverdiyevə verilib.

Belə bir əlamətdar gündə Daxili Qoşunların şəxsi heyəti qarşısında çıxış etməkdən qürur duyduğunu deyən məruzəçi, Azərbaycan Xalq Cümhuriyyətinin tarixin ən keşməkeşli illərində, mürəkkəb bir dövrdə meydana gəldiyini və çox çətin şəraitdə fəaliyyət göstərdiyini qeyd etdi. Diqqətə çatdırdı ki, xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni yerinə yetirərək milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanlarının yaradılmasına, ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsinə, qısa müddətdə yüksək döyüş qabiliyyətli ordunun yaranmasına nail oldu. Bu gün 100 illiyini qeyd etdiyimiz Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyətinin baniləri istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik və dövlətçilik ənənələrini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Bu dövlət daha demokratik, daha ümumbəşəri nailiyyətlərə söykənən bir dövlət olub".

Xalq Cümhuriyyətinin 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, müasir Azərbaycan Respublikasına böyük bir miras qoyduğunu bildirən tarixçi diqqətə çatdırdı ki, XX əsrin sonlarında yenidən dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğunun, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Milli Lider tərəfindən işlənib hazırlanmış mükəmməl siyasi islahatlar strategiyası müstəqil Azərbaycanın dünyanın aparıcı dövlətləri arasında nüfuzunun yüksəlməsinə zəmin yaratdı.

Bu gün Respublikamızın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla davam etdirildiyini xüsusi olaraq vurğulayan Ə.Şahverdiyev bu sahədə qazanılmış nailiyyətlərin qürur hissi doğurduğunu, respublikamızda siyasi-iqtisadi və sosial islahatların mütəmadi olaraq həyata keçirildiyini sözlərinə əlavə etdi.

Daha sonra tədbirin aparıcısı Milli Liderimizin müstəqil, demokratik Azərbaycanın hərtərəfli inkişafı fonundakı misilsiz xidmətlərini sadalayaraq, dahi şəxsiyyətin dövlətçiliyimiz haqqında dediyi fikirlərlə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş tədbiri yekunlaşdırdı: "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir. Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır".

**leytenant N.Ağayeva**

2_Layout 1 31.05.2018 13:39 Page 1



# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ NÜMUNƏVİ HƏRBİ İNTİZAM NÜMAYİŞ ETDİRƏN HƏRBİ QULLUQÇULAR MÜKAFATLANDIRILIB

*Mayın 7-dən 13-dək Qəbələ Atıcılıq Klubunda Milli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran Pri yarışı keçirilib.*




Yarışda ictimai qaydanın təmin edilməsində və ictimai təhlükəsizliyin qorunub saxlanılmasında digər hüquq-mühafizə qurumları ilə yanaşı, Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin şəxsi heyəti də yaxından iştirak edib. Qoşunlara həvalə olunmuş bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub. Belə ki, öncədən yarışın keçiriləcəyi ərazi öyrənilib, stasionar postların və marşrutların, eləcə də xidmətin aparılmasına cəlb olunan qrupların və şəxsi heyətin sayı müəyyən edilib.

Gündəlik olaraq xidmətə perimetr üzrə 100 nəfər hərbi qulluqçudan başqa, 10 nəfər istehkamçı, 10 nəfər ehtiyat qrup, 2 nəfər kinoloq və 2 baş xidməti it cəlb olunub. Əməliyyat şəraitinin fasiləsiz izlənilməsi üçün idarəetmə məntəqəsinin fəaliyyəti təmin edilib. Xidmət zamanı şəxsi heyətin qidalanması da diqqət mərkəzində saxlanılıb. Şəxsi heyət müəyyən olunmuş normaya uyğun qida ilə vaxtında təmin olunub. Bundan başqa, hərbi qulluqçuların sağlamlığının qorunması tibb heyəti tərəfindən ciddi nəzarətdə saxlanılıb. Yarış müddətində cinayət, hadisə və kobud intizam pozuntusu hallarına yol verilməyib.





Xidmət zamanı yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirən bir sıra hərbi qulluqçular hərbi hissə komandirinin müvafiq əmrinə əsasən mükafatlandırılıb.

**kapitan T.Əlizadə**

# DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİMDƏ YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ OLUNUB

"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, Müdafiə Nazirliyinin "Goran" Təlim Mərkəzində may ayının 8-dən 12-dək 16077 saylı hərbi hissənin artilleriya divizionunun və 17074 saylı hərbi hissənin minaatan batareyasının şəxsi heyəti ilə döyüş atışlı taktiki təlim keçirilib.









Döyüş atışlı taktiki təlimin təşkili və keçirilməsi üçün təlim sənədləri hazırlanıb. Təlimdə hərbi qulluqçulara taktiki, ixtisas, təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ, eləcə də şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib.

Məşğələlərdə atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin komandir heyəti ilə ərazinin kəşfi, qiymətləndirilməsi, döyüş əmrinin hazırlanması, artilleriya atışı və atəşinin idarə olunması izah olunub. Bundan başqa, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə, hədəfləri müəyyən etməklə atışların keçirilməsi, atəşin bir nöqtədən idarə olunması qaydaları, artilleriya atışının və atəşinin idarə edilməsi üzrə mövzular da tədris olunub. Sonra adıçəkilən məşğələlər üzrə şəxsi heyətin praktiki fəaliyyəti məşq etdirilib. Döyüş atışlı taktiki təlimə cəlb olunan bölmələrlə atəş tapşırıqları yerinə yetirilib. Təlimdə, həmçinin müvafiq normativlər üzrə şəxsi heyətin fəaliyyəti qiymətləndirilib.

Döyüş atışlı taktiki təlimdə yüksək nəticələr əldə etmiş hərbi qulluqçular hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

**kapitan T.Əlizadə**

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİNİN QARŞISININ ALINMASI DAXİLİ QOŞUNLAR KOMANDANLIĞININ DİQQƏT MƏRKƏZİNDƏDİR

Bu gün Daxili Qoşunlar Komandanlığının diqqət mərkəzində saxladığı sahələrdən biri də qoşunların balansında olan, habelə hərbi qulluqçuların fərdi nəqliyyat vasitələrinin idarə edilməsi, istismarı və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasıdır. Yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsində Avtomobil və zirehli texnika şöbəsi mütəmadi olaraq qabaqlayıcı profilaktik tədbirlər həyata keçirir.

Belə ki, ayda bir dəfə Ali Hərbi Məktəb və hərbi hissələrdə yerli Dövlət Yol Polisinin (DYP) vəzifəli şəxslərini dəvət etməklə sürücü heyəti ilə yol hərəkətinin təhlükəsizliyi mövzusunda, eləcə də "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişiklik və əlavələr üzrə məşğələlər keçirilir.

Məşğələlərdə məqsəd nizamnaməyə uyğun qayda-qanunun saxlanılması və texnika təhkim edilmiş şəxsi heyətdə, həmçinin fərdi nəqliyyat vasitələrinin sahiblərində yüksək məsuliyyət hissinin artırılmasıdır.

Belə tədbirlərdən biri də 16077 saylı hərbi hissədə Bərdə rayon DYPB-də post rəisi polis mayoru Rövşən Albəndovun iştirakı ilə həyata keçirilib.

Texnika təhkim edilmiş şəxsi heyət və fərdi nəqliyyat vasitələrinin sahibləri ilə yol hərəkəti iştirakçılarının həyatının və sağlamlığının qorunması, eyni zamanda məsuliyyət hissinin artırılması istiqamətində söhbətlər aparılıb. Bundan başqa, fərdi nəqliyyat vasitəsi olan hərbi qulluqçularda fərdi nəqliyyat vasitələrini idarə etmək hüququ verən sənədlərin mövcudluğu, eləcə də onlar tərəfindən inzibati xəta törətmələri barədə məlumatların olması Dövlət Yol Polisinin avtomobillərində quraşdırılmış bort kompyuterlər vasitəsilə yoxlanılıb və hərbi hissə rəhbərliyi tərəfindən müvafiq tədbirlərin görülməsi təmin edilib.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# DÖYÜŞ HAZIRLIĞI VƏ PEŞƏKARLIĞI İLƏ FƏRQLƏNƏN BÖLMƏ

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi qarşıya qoyulan tapşırıqların icrası zamanı yüksək döyüş hazırlığı nümayiş etdirir. Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Ramin Kərimov xidməti-döyüş fəaliyyəti barədə danışarkən qeyd etdi ki, şəxsi heyət funksional vəzifə borclarını layiqincə yerinə yetirir. O, xidməti fəaliyyətin Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunlar Komandanının təsdiq etdiyi müvafiq əmrlərə əsasən təşkil olunduğunu söylədi. Dəstədə yüksək nizam-intizamın əldə olunması üçün tabeliyində olan hərbi qulluqçuların gündəlik fəaliyyətinin daim nəzarətdə saxlanılmasını əsas iş prinsipi kimi dəyərləndirdi. Keçirilən praktiki və nəzəri məşğələlərdə tədris olunan mövzuların keyfiyyətli və fərdi qaydada mənimsənilməsi müsbət nailiyyətlərin əldə olunmasına təkan verir. Gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olmasının yoxlanılması, tərtib olunmuş cədvələ əsasən məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Komandir heyətinə məşğələlərin hansı metodla və tədris vasitələri ilə keçirilməsi barədə tapşırıqlar verilir.





Polkovnik-leytenant R.Kərimovun sözlərinə görə, hərbi qulluqçular məşğələlərdə fəal iştirak edir və xidmət etdikləri sahədə daha çox biliklər qazanmaq üçün səylərini əsirgəmirlər. Hərbi qulluqçular qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsinə hazır olmaq məqsədilə daim öz üzərilərində çalışırlar. Məşğələlərdə əsas etibarilə xüsusi vasitələrin təyinatının öyrənilməsi və düzgün tətbiqi üsullarının mənimsənilməsinə, şəxsi heyətin çevik, uzlaşdırılan fəaliyyətinə xüsusi diqqət yetirilir: "Fikrimcə şəxsi heyət onlara təhkim olunmuş xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini nəzəri cəhətdən nə qədər mükəmməl mənimsəsə, praktiki fəaliyyət zamanı çətinliklə üzləşməz. Bu mənada ixtisas hazırlığının əhəmiyyəti də diqqətdən kənarda qalmamalıdır. İxtisas hazırlığı məşğələsi hərbi qulluqçuların peşə vərdişlərinin artırılmasında mühüm əhəmiyyətə malikdir".

Burada şəxsi heyətin sağlam mənəvi-psixoloji durumunun formalaşması və onlar arasında yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də bölməyə yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşması önəm verilən əsas məsələlərdən biridir. Görülən işlərin nəticəsidir ki, cari ildə xüsusi vasitələrin tətbiqi dəstəsində ciddi intizam pozuntusuna və xəsarətalma hallarına yol verilməyib. Dəfələrlə mühüm əhəmiyyətli tədbirlərdə dövlətimizi layiqincə təmsil edən hərbçilərimiz keçən ay ölkəmizdə baş tutan "Formula-1 Azərbaycan Qran Pri" yarışı zamanı peşəkarlıq nümayiş etdirərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəliblər.

Tabeliyində olan hərbi qulluqçuların fərdi keyfiyyətlərinin nəzərə alınmasının önəmini də vurğulayan komandir şəxsi heyətin mənəvi-psixoloji durumunun öyrənilməsini vacib amil kimi qiymətləndirdiyini, bu sahəyə də yetərincə diqqət ayırdığını nəzərə çatdırdı.

Bir sözlə, xüsusi vasitələrin tətbiqi dəstəsi hərbi hissənin öncülləri sırasındadır və bu adı daima qoruyub saxlamaq əzmindədir.

**leytenant N.Ağayeva**

# LƏYAQƏTLİ HƏRBİ QULLUQÇU OLMAQ MƏSULİYYƏTİ...

**Hərbi hissələrimizdə tez-tez tədbirlərdə iştirak edir, müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularımızla ünsiyyətdə oluram. Qeyd edim ki, Daxili Qoşunların sıralarında bu günədək hərbi andına sadiq, hərbçi şərəfini uca tutan, müsbət peşəkarlıq keyfiyyətlərinin daşıyıcısı olan hərbi qulluqçular formalaşıb. Bu gün ayrı-ayrı xidmət sahələrində uğurlu fəaliyyət göstərən hərbi qulluqçularımızı müntəzəm olaraq "Əsgər"-in oxucularına təqdim edirik.**



12318 saylı hərbi hissədə məxfi hissənin rəisi baş gizir Cavanşir Məmmədov Daxili Qoşunların sıralarında bu günədək təqdirəlayiq xidmət yolu keçib. Onun fəaliyyəti hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, 1971-ci il iyunun 23-də Sabirabad rayonunun Şıxsalahlı kəndində dünyaya göz açıb. 1985-ci ildə rayonun Osmanlı kəndində 8 illik orta məktəbi bitirib. Sonra 1986-1990-cı illərdə o vaxtkı Əli Bayramlı (hazırda Şirvan) şəhərindəki Sənaye Texnikumunda orta ixtisas təhsili alıb. Burada texnik-inşaatçı peşəsinə yiyələnib.

Cavanşir 1990-1992-ci illərdə SSRİ Silahlı Qüvvələrinin tərkibində, Rusiya Federasiyası Arxangelsk vilayətinin Severodvinsk şəhərində müddətli həqiqi hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmət zamanı manqa komandiri vəzifəsinə yüksəlib, ona "çavuş" hərbi rütbəsi verilib.

Hərbi xidmətdən respublikamıza qayıtdıqdan sonra Şirvan şəhərində Sənaye Kombinatı və Qazma İşləri İdarəsində işləyib. 2000-ci ilin noyabr ayından Daxili Qoşunların 25032 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada qərargahda kargüzar vəzifəsinə təyin edilib. Sonrakı illərdə kargüzarlıq rəisi, qərargahda məsul icraçı vəzifələrində vicdanla xidmət edib. 2001-ci ildə ona "kiçik gizir", 2004-cü ildə isə "gizir" hərbi rütbələri verilib. 2012-ci ildə ona hərbi hissənin məxfi hissə rəisi vəzifəsi etibar olunub. 2014-cü ildən 12318 saylı hərbi hissədə hazırkı vəzifədədir. 2018-ci ilin aprel ayında çoxillik qüsursuz xidməti nəzərə alınaraq ona "baş gizir" hərbi rütbəsinin verilməsi xüsusi qeyd olunmalı məqamdır.

Hərbi hissədə məxfi hissənin fəaliyyətinin öz spesifik xüsusiyyətləri var. Məxfi kargüzarlığın aparılması kimi mühüm bir vəzifə bu bölməyə həvalə edilir. Ona görə də burada çalışan hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı, xidməti keyfiyyətləri müəyyən tələblərə cavab verməlidir. Əminliklə qeyd etmək olar ki, baş gizir C.Məmmədov tələb olunan kriteriyalara tam cavab verən hərbi qulluqçudur. Bundan əlavə, onun öz xidmət sahəsi üzrə təcrübəsini də nəzərdən qaçırmaq olmaz. O, bu günədək hərbi xidməti dövründə icra intizamı, dəqiqliyi, rəhbər sənədlərin tələblərinə düzgün riayət etməsi, məxfiçilik rejiminin qorunub saxlanmasında ayıq-sayıqlığı, xidmət mənafeyini üstün tutması, hərbi yoldaşlıq münasibətlərinə heç vaxt xələl gətirməməsi ilə fərqlənib. Bu müsbət cəhətləri ilə o, hərbi hissənin şəxsi heyətinə örnəkdir. Təsadüfi deyil ki, baş gizir C.Məmmədov dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb. II və III dərəcəli "Qüsursuz xidmətə görə" medalına layiq görülüb. Hərbi qulluqçu öz döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanması yönündə də əzmkarlıq göstərir. "Usta" məharət dərəcəsinin daşıyıcısıdır. Hərbi hissədə keçirilən inspeksiya yoxlamalarında da onun cavabdeh olduğu sahənin fəaliyyəti müsbət qiymətləndirilib.

Bütün bunlar onu qeyd etməyə əsas verir ki, baş gizir C.Məmmədov komandanlığın etimadını doğruldan hərbi qulluqçudur. O, illərlə qazandığı bilik və təcrübəsi ilə arxayınlaşmır, nəzəri və praktiki hazırlığını təkmilləşdirməyə səy göstərir.

Daxili Qoşunların yetirməsi olan və onun sıralarında həm də bir həyat məktəbi keçən baş gizir C.Məmmədova xidmətdə uğurlarının davamlı olmasını arzulayıram.

**Yalçın Abbasov**

3_Layout 1 29.05.2018 17:25 Page 1



# MƏNZİL-İSTİSMAR XİDMƏTLƏRİNİN RƏİSLƏRİ İLƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB



Daxili Qoşunların “2017-2018-ci tədris ilində əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı”na əsasən, may ayının 22-də mənzil-istismar xidmətlərinin rəisləri, onların yanğından mühafizə üzrə köməkçiləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışda həmçinin Ali Hərbi Məktəbin, Təlim Mərkəzinin, hərbi hissələrin ştat üzrə (ştatdankənar) yanğınsöndürmə komandasının rəisləri, o cümlədən 17077 saylı hərbi hissənin yanğınsöndürən avtomobilinin sürücüsü iştirak edib. Təsdiq olunmuş plana əsasən, hərbi qulluqçularla məşğələlər keçirilib. Məşğələlərdə mənzil-istismar xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsi barədə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının tələb və tapşırıqları çatdırılıb. Bununla yanaşı, mebel, inventarların qorunub saxlanılması, düzgün istismarı, kommunal xidmətlərdən istifadədə qənaət rejiminə əməl edilməsi, habelə avadanlıqların istismarı və təsərrüfat işləri zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi, qazanxanalarda xidmətin düzgün təşkil olunması barədə müvafiq tövsiyələr verilib. Həmçinin, FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin Təbliğat şöbəsinin əməkdaşı Nizami Fərəcov tərəfindən yanğın təhlükəsizliyi mövzusunda maarifləndirici söhbət aparılıb.

Metodiki-təlim toplanışının sonunda hərbi qulluqçulardan rəhbər sənədlərin tələblərinin öyrənilməsi üzrə məqbullar qəbul edilib.

**Mətbuat xidməti**

# 99713 SAYLI HƏRBİ HİSSƏNİN QADINLAR ŞURASI UĞURLU FƏALİYYƏT GÖSTƏRİR

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında daimi fəaliyyət göstərən ictimai təşkilatlardan biri qadınlar şurasıdır. Daxili Qoşunlar Komandanının müvafiq əmrilə təsdiq edilmiş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında qadınlar şurası haqqında əsasnamənin müddəalarına uyğun olaraq, Baş İdarədə, Ali Hərbi Məktəbdə, hərbi hissələrdə, həmçinin, əlahiddə bölmələrdə qadınlar şuraları yaradılır.***

99713 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən burada fəaliyyət göstərən qadınlar şurası haqqında material hazırlamaq qərarına gəldim. Elə bu məqsədlə də şuranın sədri çavuş Lamiyə Allahverdiyeva ilə söhbət etdik. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Mübariz Hüseynov tərəfindən müsbət xarakterizə olunan çavuş L.Allahverdiyeva qərargahın mühəndis xidmətində kargüzar vəzifəsindədir.

O, 1985-ci il avqustun 15-də Gədəbəy rayonunun Düzrəsullu kəndində dünyaya göz açıb. Kənd məktəbinin doqquzuncu sinfini 2000-ci ildə bitirən Lamiyə Gəncə şəhəri Məişət Xidməti Kollecinə qəbul olunaraq ibtidai sinif müəllimliyi ixtisası üzrə təhsilini davam etdirib. 2011-ci ilin may ayının 3-də Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Artıq yeddi ildir ki, ştat üzrə vəzifəsinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz hərbi kollektiv arasında müəyyən nüfuza, hörmətə malik olduğuna görə qadınlar şurasının sədridir.

Fəaliyyətini qadınlar şurası haqqında əsasnamə əsasında qurduğunu söyləyən çavuş L.Allahverdiyeva vəzifəsinin icrası zamanı əsas diqqətin xidmətə yeni



qəbul olunmuş qadın hərbi qulluqçulara yönləndirildiyini, onlarla hərbi geyim qaydalarının daşınması, hərbi intizama, etik davranış qaydalarına əməl edilməsi üzrə söhbətlərin aparıldığını nəzərə çatdırdı. Qadınlar şurası sədrinin müavini, MTT xidmətlərində yanacaq və sürtkü materialları xidmətinin kargüzarı çavuş Südabə Nəcəfovanın tapşırıqların qadın hərbi qulluqçulara çatdırılmasında ona yaxından köməklik etdiyini vurğuladı.

Kollektivdə xidmət edən, ailə vəziyyətindən asılı olmayaraq bütün qadın hərbi qulluqçular qadınlar şurasına üzv ola bilər. Bu işdə məqsəd hərbi qulluqçuların hərbi-vətənpərvərlik və mənəvi tərbiyəsində, kollektivdə yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsində, hərbi ənənələrin və hərbi etikaya uyğun qarşılıqlı hörmətin bərqərar olmasında, hərbçi ailələrinin mədəni istirahət və sosial-məişət məsələlərinin həllində komandir və rəislərə köməklik göstərilməsidir. Qadınlar şurası hərbi hissədə hərbi qulluqçuların ailə üzvlərində yüksək mənəvi dəyərlərin tərbiyə olunmasında, Daxili Qoşunlarda xidmətə, eləcə də hərbçi peşəsinə rəğbət hissinin aşılanması istiqamətində bir çox işlər görür. Zabit yataqxanasında yaşayan hərbi qulluqçuların ailə üzvlərilə möhkəm ailə bağlarının, qarşılıqlı hörmətin yaradılması istiqamətində işlər aparmaq, onlarla müvafiq əyləncəli proqramlar, ekskursiyalar təşkil etməklə mədəni istirahətlərini təmin etmək kimi vəzifələri uğurla yerinə yetirir.

**leytenant N.Ağayeva**

# ONLAR DÖVLƏTÇİLİK VƏ VƏTƏNPƏRVƏRLİK ƏQİDƏSİNƏ SADİQDİRLƏR...

**16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri mayor Anar Rizvanov təcrübəli və səriştəli zabitdir. Onun fəaliyyəti hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə olunur.**



Mayor A.Rizvanov 1981-ci il oktyabrın 7-də Şabran rayonunun Uzunboyad kəndində anadan olub. 1998-ci ildə Sumqayıt şəhərindəki 37 saylı orta məktəbi bitirib. 1998-2002-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsil alıb. 2002-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 17074 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Xüsusi təyinatlı dəstənin tərkibində hərbi xidmət keçməsi onun qəlbində bu bölməyə rəğbət hissi yaradıb. Xüsusi təyinatlıların yüksək döyüş hazırlığı, qətiyyəti, cəsarəti onun diqqətini cəlb edib. Beləliklə, hərbi xidmətini xüsusi təyinatlı olaraq davam etdirməyi qərara alıb.

2003-2009-cu illərdə xüsusi təyinatlı dəstədə ayrı-ayrı məsul vəzifələrə təyin olunub. 2005-2006-cı illərdə Daxili Qoşunların o vaxtkı Tədris Mərkəzinin zabit təkmilləşdirmə kursunda hərbi biliklərə yiyələnib, buranı müvəffəqiyyətlə başa vurub. Bir müddət xüsusi təyinatlı dəstə komandirinin müavini vəzifəsində xidmət edib. Bölmənin qarşısına qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi üçün öz bilik və bacarığını əsirgəməyib.

2010-cu ildə Çin Xalq Respublikasında “Xüsusi əməliyyatların idarə olunması” kursunu bitirən zabit bununla həmin istiqamət üzrə beynəlxalq təcrübədən irəli gələn məqamları mənimsəyib və öz xidməti fəaliyyətində tətbiq etmək imkanı əldə edib.

2014-cü ilin dekabr ayından hazırkı vəzifədə olan mayor A.Rizvanov dövlətçilik və vətənpərvərlik əqidəsinə sadiq qalan zabitdir. Xidməti fəaliyyətində əzmkarlığı ilə fərqlənir. Tabeliyindəki şəxsi heyəti də bu ruhda tərbiyə edir. Həmçinin, onların döyüş qabiliyyətinin yüksəldilməsi yönündə bir komandir kimi vicdanla çalışır. O, qəti əminliyini bildirir ki, xüsusi təyinatlıların sırasında döyüş qabiliyyəti zəif olan hərbi qulluqçu xidmət edə bilməz. Mayor A.Rizvanov müxtəlif illərdə Zaqatala və Qusar rayonları ərazisində silahlı cinayətkarların axtarılması və tutulması üzrə xüsusi əməliyyatlarda fəal iştirak edib. Bir komandir kimi belə çətin sınaqlardan keçməsi qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi zamanı düzgün qərar qəbul edilməsində, şəxsi heyətə döyüş ruhunun aşılanmasında çox əhəmiyyətli amildir.

Mayor A.Rizvanov bu günədək xidməti fəaliyyəti dövründə komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb.

Hərbi hissənin komendant bölüyünün başçavuşu baş gizir Rauf Quliyev də xidməti fəaliyyətində müsbət göstəricilərə nail olan hərbi qulluqçudur. O, 1983-cü il yanvarın 19-da Şabran rayonunun Uzunboyad kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirib. 2001-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. 2001-2002-ci illərdə Sərhəd Qoşunlarının tərkibində müddətli həqiqi hərbi xidmət keçib. 2004-cü ilin mart ayından Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16073 saylı hərbi hissədə təminat bölüyünün kimya-mühafizə manqasının komandiri, əməliyyat bölüyünün başçavuşu vəzifələrində xidmət edib. 2006-cı ildə gizirlər kursunu bitirdikdən sonra ona “gizir” hərbi rütbəsi verilib. 2012-ci ildə isə “baş gizir” hərbi rütbəsinə yüksəlməsi və eləcə də dəfələrlə müxtəlif növ mükafatlara layiq görülməsi onun xidməti vəzifələrinə məsuliyyət hissi ilə yanaşmasının təzahürüdür. 2014-cü ildən hazırkı vəzifəsində xidmətini davam etdirən baş gizir R.Quliyev şəxsi heyətə qayğı ilə yanaşır. Döyüş xidməti aparan bölüyün başçavuşu olmaq yüksək cavabdehlik deməkdir. Şəxsi heyətin maddi-texniki təchizatı üzrə tədbirlərin vaxtlı-vaxtında görülməsini təmin edir. Bölüyə təhkim olunan silah-sursatın, hərbi əmlakın qorunması və düzgün istifadəsini, kazarmada səliqə-sahmanın saxlanmasını, günün nizam qaydalarına riayət olunmasını, sutkalıq naryadın



xidmətə hazırlanmasını, bölük növbətçisi və gün növbətçilərinin öz vəzifələrini dəqiq yerinə yetirmələrini ciddi nəzarətdə saxlayır. Ümumilikdə, bölüyün başçavuşu kimi, Daxili Xidmət Nizamnaməsində müəyyən olunan vəzifələrinin öhdəsindən bacarıqla gəlir. Baş gizir R.Quliyev özünə qarşı tələbkardır, icraçılığı, təşkilatçılığı, hərbi kollektivdə təmkinli davranışı onun haqqında müsbət rəy yaradır. Təsadüfi deyil ki, hərbi hissənin şəxsi heyəti arasında hörmət qazanıb. Bu günədək hərbi xidməti müddətində o, müxtəlif növ mükafatlara layiq görülüb.

Sıralarımızda belə hərbi qulluqçuların xidmət etməsi nikbin əhval-ruhiyyə aşılayır və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində özünəməxsus rol oynayır.

**16073 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## *ŞƏHİDLƏRİMİZ*

# VƏTƏN SƏCDƏGAHI, ONUN UĞRUNDA DÖYÜŞMƏK ALIN YAZISI İDİ...

***Müharibə hər bir xalq üçün öz mövcudiyyətini, yaşadığı ərazini qoruya bilmək və düşmənin təcavüzünü dəf etmək sınağı ilə üz-üzə qalması deməkdir. Bu sınağın əsas ağırlığı Vətənin müdafiəçisi olan hərbi qulluqçuların üzərinə düşür. Qarabağ müharibəsində Vətən torpağını müqəddəs səcdəgahı bilib, qeyrətlə, cəsarətlə, ölüm xofu qarşısında büdrəmədən düşmənlə vuruşan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Onlardan biri-igid hərbi qulluqçu gizir Maşıyev Nemət Mütəllim oğlunun döyüş yolu hərbi hünər və ləyaqət nümunəsidir.***

N.Maşıyev 26 sentyabr 1972-ci ildə Vətənimizin dilbər guşəsi olan Lerik rayonunun Şinəband kəndində dünyaya göz açıb. Mütəllim Maşıyev və Balabəyim Musayevanın qurduğu xoşbəxt ailədə 8 oğul və 1 qız övladı doğulub. Bu övladlar öz halal zəhməti, xeyirxahlığı ilə el-oba arasında hörmət qazanmış valideynlərindən əxz etdikləri müsbət keyfiyyətlərlə vətənpərvər ruhda böyüyərək formalaşıblar. Ailədə hər bir övladın öz xarakteri olduğu kimi, Nemət də özünəməxsus fərdi cəhətləri ilə fərqlənib. O, yeniyetməlik çağlarından cəsarətli və qətiyyətli olub. İdmana maraq göstərib, fiziki hazırlığına ciddi diqqət yetirib, həmişə öz gücünə güvənib. Yoldaşlıq etməyi bacaran və yoldaşlarına dəyər verən gənc kimi tanınıb.

Nemət 8 il Bakının Mərdəkan qəsəbəsindəki 3 saylı internat məktəbində, 2 il isə Lerik rayonunun Nuravud kəndindəki orta məktəbdə təhsil alıb. Müəllim peşəsinə rəğbətlə yanaşan Nemət təəssüf ki, ali təhsil almaq arzusuna qovuşa bilməyib.



Onu da qeyd etməyi vacib bilirəm ki, Nemətin babası, atasının əmisi, anasının əmiləri II Dünya Müharibəsində faşistlərə qarşı vuruşublar, onlar ön cəbhədən geri qayıtmayıblar. Ailədə o müharibədən geri dönməyənlər həmişə ehtiramla anılıb. Bu amil də Nemətin mənəvi tərbiyəsinə təsirsiz qalmayıb.

1990-cı ilin oktyabr ayında N.Maşıyev Lerik Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik Rayon Şöbəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. SSRİ Silahlı Qüvvələrinin Ukraynanın tərkibindəki Krımın Aluşta şəhərində yerləşən 63314 saylı hərbi hissəsində hərbi xidmətə başlayıb. Bu hərbi hissədən Simferopoldakı çavuşlar məktəbinə göndərilib. Oranı bitirdikdən sonra ona “mladşiy serjant” (kiçik çavuş) hərbi rütbəsi verilib. O, Ukraynada hərbi xidmətinin sonunadək “serjant” (çavuş) hərbi rütbəsinədək yüksəlib. Hərbi inşaat təyinatlı həmin hərbi hissədə fərdi keyfiyyətləri nəzərə alınaraq, Nemətə bölüyün starşinası (bölüyün başçavuşu) vəzifəsini icra etmək də həvalə olunub. Bu vəzifənin öhdəsindən bacarıqla gəlib.

Ermənistanın respublikamıza hərbi təcavüzü nəticəsində başlayan Qarabağ müharibəsi 1990-cı illərin əvvəllərində daha da qaynar mərhələyə qədəm qoymuşdu. Həmvətənlərimizin doğma yurdlarından didərgin salınması, yaşayış məntəqələrimizin işğala məruz qalması gerçəkliyində Nemət xalqımızın fədakar oğlu kimi respublikamızdan uzaqda rahat qala bilməzdi. 1992-ci ilin fevral ayının 26-da baş vermiş Xocalı soyqırımı onu da dərindən sarsıtmışdı. Beləliklə, 1992-ci ilin mart ayında birdəfəlik Azərbaycana qayıtmağı, torpaqlarımızın müdafiəsində iştirak etməyi qəti qərarlaşdırıb. Həmin ay respublikamıza qayıtmış Nemət burada vəziyyətin nə qədər gərgin olduğunun, hərbi kadrlara ehtiyac yarandığının şahidi olur. O, hərbi xidmətə çağırılması üçün hərbi komissarlığa yazılı müraciət edir. Bir müddət gözləməli olur. Çünki o vaxt respublikada qarışıqlıq idi, hərbi qurumlar yeni formalaşırdı. Nəhayət, 1992-ci ilin may ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına qəbul olunub. 5456 saylı hərbi hissənin (hazırda 99713 saylı hərbi hissə) tərkibində hərbi xidmətini davam etdirməsi onun həyatında yeni bir səhifə açdı. Belə ki, Nemət öz respublikamızda, üçrəngli bayrağımız altında, müstəqil dövlətimizə sadiq olacağına and içərək hərbi xidmət keçməsinə böyük qürur hissi ilə yanaşırdı.

5456 saylı hərbi hissənin tərkibində Zəngilan rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşlərə atılan Nemət ön cəbhəyə qədəm basdığı ilk gündən çətin sınaqlara mənən hazır idi. Bu, onun möhkəm iradəsindən, şəxsi ləyaqət hissindən irəli gəlirdi. Nemət Zəngilanın müdafiəsi uğrunda döyüşlərdə




şücaət nümunələri göstərib. Onun döyüş yolu Zəngilanın Günqışlaq, Ağkənd, Seyidlər, Dərəli, Canbar, Nəcəflər, Bürünlü, Qazançı, Şayıflı, Qaragöl və digər kəndlərindən, habelə bir sıra yüksəkliklərdən (Ayı daşı, Nəbi daşı, Şişqaya) keçib. Həmin döyüşlərdə o, igidlik göstərərək ön cəbhənin təmas xəttində düşmənin onlarla hərbçisini, müdafiə postları və atəş nöqtələrini məhv edib. Döyüşçü yoldaşlarını döyüşlərin gedişində çətin vəziyyətlərdən çıxarmağı da bacarıb.

1993-cü ilin yanvar ayından Daxili Qoşunların Zəngilan rayonunda ayrıca hərbi hissəsi - 16072 saylı hərbi hissə (1993-cü ilin oktyabr ayında Zəngilan rayonunun işğalından sonra fəaliyyəti dayandırılıb, şəxsi heyəti digər hərbi hissələrin tərkibində hərbi xidmətini davam etdirib) formalaşdırılıb. 5456 saylı hərbi hissənin burada döyüşlərdə iştirak edən şəxsi heyəti yeni hərbi hissənin tərkibinə daxil olub. Fədakar zabit Əkbər Hüsüyevin komandir olduğu bu hərbi hissə qarşıya qoyulan döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib.

Daxili Qoşunlar Komandanının 1993-cü il 1 mart tarixli, 171 nömrəli əmri ilə N.Maşıyevə “gizir” hərbi rütbəsi verilib. O, 16072 saylı hərbi hissədə məsul vəzifəni yerinə yetirməklə yanaşı, həmişə döyüş tapşırıqlarının yerinə yetirilməsinə can atıb. Nemətin son döyüşü 15 may 1993-cü ildə Zəngilanın Qaragöl kəndi ərazisində olub. Həmin gün erməni işğalçıları tərəfindən hərbi hissənin şəxsi heyəti, avtomobil texnikası, yerləşdiyi şəhərcik artilleriya və zirehli texnikalardan şiddətli atəşə məruz qalıb. Hərbi hissəyə məxsus yanacaq daşıyan avtomobilin alışıb yandığını görən Nemət bir neçə hərbi qulluqçu ilə cəld onu söndürməyə atılıb. Həmin avtomobilin dayandığı yerin yaxınlığında silah anbarı yerləşirdi. O, yanğını söndürməklə böyük təhlükənin qarşısını alıb, lakin əraziyə aramsız atılan mərmilərdən birinin qəlpələrinə tuş gələrək bədəninin müxtəlif nahiyələrindən ağır yaralanıb və yerindəcə həlak olub. Həmin anda daha bir döyüşçümüz şəhid olub, hərbi hissə komandiri Ə.Hüsüyev isə yaralanıb.

Gizir N.Maşıyev doğma yurdu Şinəband kəndində dəfn olunub. Kənd orta məktəbinə şəhidin adı verilib. Dövlətimiz tərəfindən şəhidin ailəsinə müavinət təyin edilib.

**Azərbaycan Respublikası Prezidentinin 11 mart 2008-ci il tarixli, 2727 nömrəli Sərəncamı ilə gizir N.Maşıyev ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif olunub.**

Şəhid hərbi qulluqçumuz haqqında bu günədək ayrı-ayrı kitab və qəzetlərdə məqalələr dərc edilib.

Nemətin atası Mütəllim Maşıyev ömrünün son gününədək həm onun, həm də Bakı Metrosunda 1995-ci ildə baş vermiş faciəvi hadisə zamanı həlak olmuş oğlu Mahirin itkisinin ağrı-acısı ilə yaşayıb.

Nemət ailə üzvlərinin, döyüşçü yoldaşlarının, bütün onu tanıyanların xatirəsində yaşayacaq və ehtiramla anılacaq. İgid oğullar heç vaxt unudulmur.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# NÜMUNƏVİ XİDMƏT HƏRBİ QULLUQÇULARIN MÜSBƏT MƏNƏVİ TƏRBİYƏSİNDƏN İRƏLİ GƏLİR

Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 16073 saylı hərbi hissədə də nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular az deyil. Onlardan biri də **kiçik çavuş Elvin Əhmədlidir**. O, 1994-cü il oktyabr ayının 7-də Bakı şəhərində anadan olub. Ali təhsillidir, Azərbaycan Universitetində informasiya-kommunikasiya texnologiyaları üzrə ixtisasa yiyələnib. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Hazırda hərbi hissənin komendant bölüyündə manqa komandiri vəzifəsində xidmət edir. Kiçik komandir kimi ona göstərilən etimadı doğruldur. Funksional vəzifələrinə məsuliyyətlə yanaşır. Bölüyün döyüş xidməti üzrə qarşısına qoyulan tapşırıqların mahiyyəti və xüsusiyyətlərini düzgün dərk edir. Qarovul xidmətinə cəlb olunan zaman öz vəzifələrini dəqiq yerinə yetirir. Daim öz döyüş hazırlığının yüksəldilməsinə çalışır. Manqanın şəxsi heyətinə həm tələbkar, həm də qayğıkeşdir. Onların nizam-intizamına, təliminə ciddi diqqət yetirir. Çavuşlar arasında da nüfuza malikdir. Elvin bu günədək hərbi xidməti müddətində dəfələrlə mükafatlandırılıb.





**Baş əsgər Nurlan Piriyevi** də müsbət cəhətdən xarakterizə etmək olar. O, 1996-cı il may ayının 17-də Göyçay rayonunun Qaraman kəndində anadan olub. Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Çox işlənən maliyyə texnologiyası mühəndisliyi ixtisasına yiyələnən Nurlan çoxşaxəli biliklərə malikdir. İngilis dilində sərbəst danışa bilir. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların hərbi qulluqçusu olması ilə fəxr edir. O, hərbi hissənin komendant bölüyündə baş atıcı vəzifəsində üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirir. Bölüyün hərbi kollektiv şurasının üzvüdür. Nizam-intizamlı, özünə qarşı tələbkar, yoldaşlarına diqqətli olan baş əsgər N.Piriyev keçirilən məşğələlər və praktiki təlimlər zamanı təqdirəlayiq nəticələr göstərir. Həmçinin, qarovul xidmətinə cəlb olunan zaman ayıqsayıqlığı, təhlükəsizlik qaydalarına ciddi riayət etməsi ilə fərqlənir. Hərbi hissənin döyüş bayrağının mühafizəsi etibar olunan baş əsgər N.Piriyev bu vəzifəsinə qürurla yanaşır. Qarovul xidməti zamanı növbənin fəal kimi də üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Baş əsgər N.Piriyev də hərbi xidmətdə olduğu ötən müddətdə komandirlər tərəfindən bir neçə dəfə mükafatlandırılıb.




Hərbi hissənin təminat bölüyündə atıcı **əsgər Samir Səfərov** da hərbi xidmət borcunu vicdanla yerinə yetirir. O, 1999-cu il may ayının 25-də Şəmkir rayonunun Səməd Vurğun adına kəndində dünyaya göz açıb. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Əsgər S.Səfərov xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlir, təlimdə çalışqandır, məşğələlər zamanı hərbi biliklərini artırmağa səy göstərir. Samir ona təhkim olunan silahın texniki xassələrini, düzgün istifadə qaydalarını dolğun mənimsəyib. O, Daxili Qoşunların keçdiyi şərəfli yol, hərbi qulluqçularımızın şücaət nümunələri ilə maraqlanır. Belə nümunələrin vətənpərvərlik əqidəsi aşıladığını deyir. Əsgər S.Səfərova bölük komandiri tərəfindən təşəkkür elan olunub.

Təminat bölüyündə sürücü **əsgər Ceyhun Məhərrəmli** də nümunəvi xidmət edən hərbi qulluqçulardan biridir. O, 1995-ci il aprel ayının 6-da Bakı şəhərində anadan olub. ADA Universitetində ali təhsil alıb. Mühasibat uçotu və audit ixtisasına yiyələnib. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Əsgər C.Məhərrəmli öz vəzifələrini əzmlə yerinə yetirir, hərbi kollektivdə təmkini, ciddi davranışı ilə fərqlənir. Ceyhun bölükdə avtomobil taqımı üzrə idman təşkilatçısıdır. Ona təhkim olunan hərbi avtomobilin istismar qaydalarına, texniki xüsusiyyətlərinə yaxşı bələddir. Avtomobilin idarə olunması zamanı yol hərəkəti qaydalarına həmişə dəqiqliklə əməl edən əsgər C.Məhərrəmli, bunun getdiyin ünvana sağsalamat çatmağın vacib şərti olduğunu vurğulayır. Bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən əsgər C.Məhərrəmliyə təşəkkür elan olunub.



Bu hərbi qulluqçularımıza hərbi xidməti uğurla başa vurub valideynlərinin yanına alnıaçıq, üzüağ dönmələrini arzulayırıq.

**16073 saylı hərbi hissənin ştatdankənar müxbir postu**



"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, may ayının 5-də 25031 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda çoxnövçülük və estafet yarışları keçirilib. Turnirdə Ali Hərbi Məktəbdən, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla 36 nəfər hərbi qulluqçu öz qüvvəsini sınayıb. Şəxsi və komanda birinciliyinin nəticələri aşağıdakı kimi olub:

**100 m. məsafə üzrə**

**I yer** əsgər Ənvər Əmirli (99713 saylı hərbi hissə);
**II yer** baş çavuş Əsgər Əhmədov (16075 saylı hərbi hissə);
**III yer** Cəfər Cəfərov (16075 saylı hərbi hissə).

**1000 m. məsafə üzrə**

**I yer** əsgər Ənvər Əmirli (99713 saylı hərbi hissə);
**II yer** çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
**III yer** çavuş Rza Sədrəddinov (99713 saylı hərbi hissə).

**Gimnastika üzrə**

**I yer** baş leytenant Elman Abdullayev (25031 saylı hərbi hissə);
**II yer** kursant İsmayıl Qasımov (Ali Hərbi Məktəb);
**III yer** kursant Natiq Məmmədov (Ali Hərbi Məktəb).

Çoxnövçülük və estafet komanda üzrə hər iki yarışın qalibi 99713 saylı hərbi hissə olub.

*****

Digər bir yarış may ayının 8-dən 10-dək daxili işlər orqan və hissələri arasında keçirilib. Milli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Daxili İşlər Nazirliyinin çoxnövçülük üzrə şəxsi və komanda birinciliyində Daxili Qoşunları 6 idmançı və 1 nümayəndə heyəti təmsil edib. 100 və 1000 metr məsafəni hamıdan öncə qət edən əsgər Ənvər Əmirli (99713 saylı hərbi hissə) I yeri tutub. Ümumilikdə, Daxili Qoşunların komandası topladığı xallara görə çoxnövçülük üzrə komanda birinciliyində yarışın qalibi olub.

*****

Milli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş daha bir beynəlxalq turnir mayın 10-dan 13-dək

## idman

# DAXİLİ QOŞUNLARIN KOMANDASI YARIŞIN QALİBİ OLUB





Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində baş tutub. İdmanın kikboksinq növü üzrə keçirilən yarışda Daxili Qoşunların İdman komandasının üzvləri əsgər Zöhrab Əzimov və əsgər Anar Məmmədov da öz qüvvələrini sınayıblar. Kikboksinq üzrə idman ustası olan hər iki hərbi qulluqçumuz çıxış etdikləri 63 və 64 kq. çəki dərəcəsində rəqiblərini üstələyərək I yeri tutublar.

**kapitan T.Əlizadə**

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

# 21 CÜMHURİYYƏT GENERALIMIZ...

**O zaman yeni yaradılmış Milli Ordunun qarşısında duran ilk vəzifə ölkəni daşnak-bolşevik işğalından azad etmək idi. Milli Ordu Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu birgə buna nail ola bildi. 1918-ci il iyunun 4-də Türkiyə ilə imzalanan müqaviləyə əsasən, qardaş ölkə Azərbaycana ilk hərbi yardım göstərib. 1918-ci il iyulun 11-də Milli Orduya çağırış haqqında ilk əmr verilib və 24-29 yaşlı oğlanlar səfərbər edilib. 1918-ci ilin iyununda Gəncədə hərbi məktəb yaradılıb.**

1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad olunmasından sonra milli hökumət Xəzər hərbi donanmasını yenidən qurub.

1918-1920-ci illərdə türk və rus zabitlərinin köməkliyi ilə Milli Ordunun piyada və atlı alayları, artilleriya briqadası yaradılıb.

Ordunu silah-sursatla təmin etmək məqsədi ilə hökumət 1920-ci ilin yanvarında hərbi-sənaye kompleksinin yaradılması haqqında qanun layihəsi hazırlayıb.

AXC-nin ordu quruculuğu siyasətində milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa bağlılıq duyumu əsas prinsiplərdən olub. O zaman daxili və xarici düşmənlər AXC-nin gənc ordusunun döyüş hazırlığının aşağı səviyyədə olduğunu zənn edərək ona qarşı təxribat əməliyyatları həyata keçirməyə səy göstərirdilər.

1920-ci ilin yanvarında AXC hökuməti Milli Ordunun yaradılması prosesini demək olar ki, başa çatdırıb. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi.

Lakin təəssüf ki, 1920-ci ilin aprelində AXC hökumətinin süquta uğraması və Azərbaycanın Qızıl Ordu tərəfindən işğal edilməsi qarşıda duran planları alt-üst etdi. Tarixçi Araz Vəliyevin bildirdiyinə görə, o zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin 21 generalı olub:

**1. Səməd bəy Mehmandarov**
**2. Əliağa Şıxlinski**
**3. Xosrov bəy Sultanov**
**4. İbrahim ağa Vəkilov**
**5. Həbib bəy Səlimov**
**6. İbrahim ağa Usubov**
**7. Hüseyn xan Naxçıvanski**
**8. Mirkazım bəy Talışxanov**
**9. Firudun bəy Vəzirov**
**10. Qalib bəy Vəkilov**
**11. Daniyel bəy Hələcov**
**12. Əliyar bəy Haşımbəyov**
**13. Süleyman bəy Əfəndiyev**
**14. Teymur bəy Novruzov**
**15. Əmir Kazım Mirzə Qovanlı-Qacar**
**16. Feyzulla Mirzə Qovanlı-Qacar**
**17. Cavad bəy Şıxlinski**
**18. Əbdülhəmid bəy Qaytabaşı**
**19. Murad Tlexas**
**20. Məmməd Sadıq bəy Ağabəyzadə**
**21. Məhəmməd bəy Sulkeviç**

Tarixçi A.Vəliyevin sözlərinə görə, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan sonra onun generalları da təqiblərə məruz qaldı. Bəziləri Azərbaycandan didərgin salındı, digərləri «əksinqilabi fəaliyyətdə» günahlandırılaraq, sürgünə göndərildi və ya güllələndi.

Məsələn, general-leytenant Məmmədbəy Sulkeviç (Litva tatarı, Azərbaycan vətəndaşlığını qəbul etmişdi) 1918-1919-cu illərdə Azərbaycan ordusunda Baş Qərargahın rəisi və az sonra Gəncədəki 1-ci müsəlman korpusunun komandiri olub. 1920-ci ilin mayında bolşeviklər general Sulkeviçi həbs edərək Bakı Fövqəladə Komitəsinin zirzəmisinə salırlar. İyulun 15-də "əksinqilabi fəaliyyətdə" günahlandırıb güllələyirlər...

General-mayor Cavad bəy Şıxlinski, general Məhəmməd Mirzə Qacar Gəncədə Rusiyanın XI Qızıl Ordusuna qarşı xalq mübarizəsinə rəhbərlik edirlər.

Azərbaycan generallarından Xalq Cümhuriyyəti hökumətinin I və II kabinetlərində hərbi nazir Xosrov bəy Sultanov, daxili işlər naziri isə Behbud Cavanşir olub. Xosrov bəy Sultanov 1919-cu ildə Qarabağın general-qubernatoru vəzifəsində çalışıb.

Tarixçinin bildirdiyinə görə, 1920-ci ilin bolşevik-daşnak terroru nəticəsində Azərbaycan Milli Ordusunda xidmət edən 12 general, 27 polkovnik, 46 kapitan və ştabs kapitan, poruçik və podporuçik, 148 praporşik və podpraporşik, 266 nəfər digər rütbəli hərbi qulluqçumuz məhv edilib.

General-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov, general-mayor Əmir Kazım Mirzə Qovanlı-Qacar, general-mayor İbrahim ağa Usubov, general-leytenant Məmməd bəy Sulkeviç, general-mayor Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşı, general-mayor Murad Gəraybəy oğlu Tlexas, general-mayor Əliyar bəy Mehdi bəy oğlu Haşımbəyov Nargin adasında güllələniblər...

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-



### ABŞ dəniz piyadaları korpusu CH-53K "King Stallion" helikopteri ilə təchiz edilib

Bu barədə ABŞ dəniz piyadaları korpusu məlumat yayıb. Helikopter dəniz piyadalarının Kaliforniya ştatının Ceksonvill şəhəri yaxınlığındakı bazasına gəlib.

Öz qiymətinə görə bu helikopter hətta F-35-i belə qabaqlayır. Onun qiyməti 138,5 milyon dollar təşkil edir. F-35B qırıcısının qiyməti 122,8 milyon dollardır. Daha sadə F-35A isə 80 milyon dollar dəyərindədir.

Qeyd edək ki, ABŞ ordusu üçün ümumilikdə 200 ədəd belə helikopterin alınması nəzərdə tutulub.

### Rusiyanın Ladojsk gölündə "Uraqan" kiçik raket gəmisinin sınaqları baş tutub



Sınaqların görüntüləri Rusiya Müdafiə Nazirliyi tərəfindən ictimailəşdirilib.

22800 layihəsinin "Uraqan" kiriç raket gəmisinin Ladojsk gölündə başlanan sınaqları zavod sınaqlarıdır. Gəmi yeni nəsil hesab edilir. O, "Pella" zavodunda istehsal edilib.

Gəmi Ladosjk gölündə gediş sınaqlarından keçirildikdən və bütün sınaqların bitməsindən sonra Baltik Donanmasına təhvil veriləcək.

### Rusiya Mərkəzi Hərb Dairəsi 2018-ci il çərçivəsində "Terminator" tankların dəstəyi döyüş maşını ilə təchiz ediləcək



Bu barədə Rusiya Mərkəzi Hərb Dairəsi qoşunlarının komandanı, general-leytenant Aleksandr Lapin bəyan edib.

"Bu çox yaxşı döyüş maşınıdır. O, özünü həm döyüşlər, həm də sınaqlarda ideal şəkildə nümayiş etdirib", - deyə Lapin bildirib.

O, qeyd edib ki, Mərkəzi Hərb Dairəsi 2020-ci ildə "Armata"nın platformasında yaradılan döyüş texnikası ilə təchiz ediləcək.

### Hindistan Hərbi Hava Qüvvələri yerli istehsal yüngül döyüş təyyarəsi olan "Tejas"ı "Meteor" standartlı uzaqmənzilli raketlərlə təchiz edəcək

Raketlərin təchizatını "Hindustan Aeronautics Limited" şirkəti həyata keçirəcək.



Bu raketlərdə yerləşdirilən qırıcılar düşmən obyektlərini 100 kilometrdən hədəf ala biləcək.

Hindistan HHQ-nin 83 təyyarəsi bu raketlə təchiz olunacaq. HHQ-nin istifadəsində olan "Tejas" "Mark 1A" tipli yüngül döyüş təyyarəsi hesab edilir. Hindistan Müdafiə Tədqiqatları təşkilatı-DRDO hazırda "Mark 2A" standartına uyğun təyyarə üzərində işləyir. Yeni təyyarə bir öncəkinə görə daha geniş imkanlara sahib olacaq.

**"ORDU.AZ" hərbi xəbər saytı**

# Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı ehtiyatda olan general-mayor Şirin Xəlilova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı baş leytenant Taleh Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı baş çavuş Bünyad Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000